**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# MÖVLANƏ CƏLALƏDDİN RUMİ YARADICILIĞINDA TƏRBİYƏ PROBLEMLƏRİ

İxtisas: 5804.01-Ümumi pedaqogika, pedaqogikanın və təhsilin tarixi

Elm sahəsi: Pedaqogika

İddiaçı: **Xəfayət Müzəffər qızı Əliyeva**

Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Naxçıvan – 2022**

Dissertasiya işi Naxçıvan Dövlət Universitetinin "Pedaqogika və psixologiya" kafedrasında yerinə yetirilmişdir.

| | |
|---|---|
| Elmi rəhbərlər: | Filologiya elmləri doktoru, professor, Akademik, Əməkdar elm xadimi **İsa Əkbər oğlu Həbibbəyli** |
| | Pedaqogika üzrə elmlər doktoru, dosent Azərbaycan Respublikasının əməkdar müəllimi **Kamal Həsən oğlu Camalov** |
| Rəsmi opponentlər: | pedaqoji elmləri doktoru, professor **Rüfət Lətif oğlu Hüseynzadə** |
| | Pedaqogika üzrə fəlsəfə doktoru,dosent **Vidadi Paşa oğlu Bəşirov** |
| | Pedaqogika üzrə fəlsəfə doktoru,dosent **Aytəkin Telman qızı Məmmədova** |

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Naxçıvan Müəllimlər İnstitutunun nəzdində fəaliyyət göstərən FD 2.40 Dissertasiya Şurası

| | |
|---|---|
| Dissertasiya şurasının sədri: ___________ | Pedaqoji elmlər doktoru, professor **İsmayıl İsrafil oğlu Əliyev** |
| Dissertasiya şurasının elmi katibi: ___________ | Pedaqogika üzrə fəlsəfə doktoru, dosent **Qızıltac Tarverdi qızı Şahbazova** |
| Elmi seminarın sədri: ___________ | Pedaqoji elmlər doktoru, professor **Ləzifə Nağı qızı Qasımova** |

# TƏDQİQATIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Qoca Şərqin şair və mütəfikkiri Mövlanə Cəlaləddin Rumi pedaqoji fikir tarixinin inkişafında mühüm rol oynamışdır. Onun yaradıcılığı bəşər ədəbiyyatının inkişafında yeni era açmışdır. Mübaliğəsiz demək olar ki, Mövlanə Cəlaləddin Rumi pedaqogika elminin təşəkkül və inkişafını şərtləndirən sosial-siyasi amillərə, tərbiyə nəzəriyyəsinin spesifik xüsusiyyətlərinə, nəzəri və praktik problemlərin həllinə, tarixi qaynaqların inkişafına və s. böyük təsir göstərmişdir. Zaman keçdikcə biz Mövlanənin dühasının əzəmətini daha aydın görür, onu daha geniş, daha dərin və mükəmməl dərk etməklə tərbiyənin inkişafında yeni nailiyyətlər qazanırıq. Çünki Mövlanənin dühası ilə illər, əsrlər ardından gördüyümüz ümid və arzular dünyası gözümüzün qarşısında lövhə-lövhə açılır. Üz-üzə durmuş neçə-neçə əsrlərin, neçə-neçə bir-birinə zidd məqsədli dünyanın müxtəlif yolları Mövlanə sözünün həqiqətini, Mövlanə gözünün uzaqgörənliyini, Mövlanə fikrinin dərinliyini, Mövlanə zəkasının misilsizliyini, Mövlanə inamının bəşəri qüdrətini və həyatiliyini bütün varlığı ilə qarşımızda canlandırır.

Bütün bunlar Mövlanə Cəlaləddin Ruminin yaradıcılığının ictimai-fəlsəfi, pedaqoji-psixoloji fikrinin inkişafı tarixində və ya çağdaş dövrümüzdəki problemlərin məcmuyuna ümumi bir baxışdır. Mövlanəyə, Mövlanə yaradıcılığına olan ehtiram əsrlər keçdikcə daha çox olmuşdur. Buna görə də Mövlanə ədəbi-pedaqoji irsinə ciddi qayğı göstərməklə onu nöqsansız olaraq pedaqoji mühitə çatdırmaq qarşıda duran mühüm məsələlərdən biridir. Mövlanənin hər bir əsərindən aydın görünür ki, o, özündən əvvəlki pedaqoji irsin qabaqcıl cəhətləri ilə, xüsusilə qədim dünya mədəniyyətinin mütərəqqi cəhətləri ilə yaxından tanış olmuşdur. Mövlanənin əsərlərində elə bir sıra faktlar vardır ki, onlar şairin qədim ölkələrin tarixini yaxşı bildiyini, qədim türk, fars, ərəb, Çin, Hindistan, yunan və s. fəlsəfəsinə və pedaqoji-psixoloji fikir tarixinə bələdliyini təsdiq edir. Bəşər fikrinin, öz dövründəki elmlərin elə bir sahəsi yoxdur ki, Mövlanə məşhur "Divani-Kəbir", "Fihi ma fih", "Məclisi-Səba", "Məktubat", "Məsnəvi" kimi traktatlarında o haqda danışmasın.

“Mövlanə Cəlaləddin Rumi yaradıcılığında tərbiyə problemləri” adlandırdığımız tədqiqat işi həm də ona görə aktualdır ki, Mövlanə insanları zaman-zaman düşündürən və bu günə qədər aktuallığını itirməyən qlobal problemləri ilk dəfə pedaqoji fikir tarixinin bir sıra mövzusuna çevirmişdir.

Mövlanə Cəlaləddin Rumi öz yaradıcılığında cəmiyyətin inkişafına xidmət edən insan ruhunun, onun yaradıcı əməyinin və xeyirxah əməllərinin ölməzliyini təsdiq edir. *“Bilin ki, insanların ən xeyirlisi, insanlara ən yararlı olandır”*[1] – deyən Mövlanənin yaşayarkən xeyirxah əməllər törətmək, xeyirxahlıq qazanmaq kimi islami şüarları müasirlərinə yaxın olduğu qədər bizə də yaxın və aydındır. Qəti əminliklə demək olar ki, Mövlanənin islam mədəniyyətindən götürüb inkişaf etdirdiyi bir çox tərbiyəvi prinsiplər və ideyalar sonralar xələfləri sayılacaq İmadəddin Nəsimi, Məhəmməd Füzuli, Əbdürrəhman Cami, Molla Pənah Vaqif, Aleksey Osipoviç Çernyayevski, Rəşid Bəy Əfəndiyev, Firidun Bəy Köçərli, Mirzə Ələkbər Sabir, Abdulla Şaiq və başqa görkəmli nümayəndələr tərəfindən inkişaf etdirilmişdir.

Zamanın qocalda bilmədiyi Mövlanənin yaradıcılığı xarici ölkələrdə topluları, çoxcildli nəşrləri davamlı nəşr edilərək işıqlandırılsa da, ölkəmizdə əsərlərinin çap edilərək oxuculara təqdim edilməsinə ögey münasibət göstərilmişdir. Mövlanənin yaradıcılıq irsinin fars, ərəb və türk dilindən tərcümə edilərək Azərbaycan oxucularının öhdəsinə verilməsinə ilk təşəbbüs Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov tərəfindən göstərilmişdir. Cənab Vasif Talıbovun baş məsləhətçiliyi ilə Mövlanə Cəlaləddin Ruminin altı dəftərdən (VI dəftər) ibarət olan “Məsnəvi”si üç cilddə (III cilddə) 2012-ci ildən geniş oxucu kütləsinin ixtiyarına verilmişdir.

Ötüb keçən səkkiz əsrə baxmayaraq Mövlanə Cəlaləddin Rumi dünya şairləri, yazıçıları, mütəfəkkirləri, memarları, rəssamları

---

[1] Mevlana ve Şemsten yüreyinizi ısıtan hikayeler. İstanbul: Yakomoz kitab, 2014, səh.39

tərəfindən həmişə ədəbi-pedaqoji-psixoloji-estetik sənətin canlı iştirakçısı kimi qəbul olunmaqdadır.

**Mövlanə Cəlaləddin Ruminin pedaqoji ideyalarının tədqiq edilib öyrənilməsi ona görə vacibdir ki:**

1. Mövlanə XIII əsrin əvvəllərindən ictimai-pedaqoji hərəkatın əsas simalarından biri olmaqla dövrünün mühüm pedaqoji məsələlərini demokratik əsaslarla həll etmək uğrunda ciddi mübarizə aparmışdır.

2. Mövlanə Cəlaləddin Ruminin pedaqoji irsinin öyrənilməsi tək tarixilik nöqteyi-nəzərdən deyil, həm də çağdaş dövrümüzün müasir inkişafı mərhələsi üçün faydalıdır. Çünki onun tərbiyəyə aid fikirləri gənc nəsli müstəqil həyatda nəcib əxlaqi keyfiyyətlər ruhunda tərbiyələndirmək işində xüsusi əhəmiyyətə malikdir.

3. Humanist, xeyirxah, səmimi, sülhpərvər, həqiqət aşiqi, dərin düşüncəli pedaqoq, görkəmli ictimai və mədəniyyət xadimi Mövlanə Cəlaləddin Ruminin həyat yolu gənclərə bariz nümunədir.

**Tədqiqatın obyekti.** Mövlanə Cəlaləddin Rumi yaradıcılığı irsində tərbiyə problemlərinin araşdırılması təşkil edir.

**Tədqiqatın predmeti**. Mövlanə Cəlaləddin Rumi yaradıcılığı irsindən istifadənin imkanları, təşkili yolları və ya pedaqoji ideyalarının sistemli öyrənilməsi ilə şərtlənir.

**Tədqiqatın məqsədi.** Tədqiqatın başlıca məqsədi Mövlanə yaradıcılığındakı pedaqoji irsi aşkara çıxarmaqdan, dövrün ictimai-siyasi və pedaqoji fikri kontekstində təhlil etməkdən, tədris prosesində ondan istifadənin potensial imkanlarını müəyyənləşdirməkdən, sistemləşdirməkdən və tərbiyə işinin gərgin problemlərini mənalandırmaqdan, əlaqələndirməkdən ibarətdir.

**Tədqiqatın vəzifələri.** Qarşıya qoyulan məqsədlərə çatmaq üçün aşağıdakı vəzifələrin yerinə yetirilməsi nəzərdə tutulmuşdur:

– Mövlanə Cəlaləddin Ruminin yaşayıb fəaliyyət göstərdiyi mühiti, ictimai-siyasi, fəlsəfi-sosioloji baxışlarını və yaradıcılığını nəzərdən keçirmək;

– Mövlanə Cəlaləddin Rumi yaradıcılığındakı tərbiyə prosesinin mahiyyətini, tərkib hissələrini, vasitə və üsullarını müəyyən etmək və münasibət bildirmək;

– Mövlanə Cəlaləddin Ruminin mənəvi-əxlaqi ideyalarını və fəaliyyətini elmi-pedaqoji aspektdən təhlil etmək;

– Rumi yaradıcılığında əqli tərbiyənin strukturunu müəyyənləşdirmək;

– Mövlanə Cəlaləddin Rumi yaradıcılığında özünütərbiyə, yoldaşlıq-dostluq, ailə, əmək tərbiyəsi ilə bağlı fikir və ideyalarından istifadənin imkan və yollarını aşkarlamaq;

– Mövlanə Cəlaləddin Ruminin pedaqoji ideya və görüşlərini müasir dövr üçün əhəmiyyətini göstərmək;

– Problem baxımından mövcud ədəbiyyatı öyrənib təhlil etmək.

**Tədqiqatın metodları:** tarixi-müqayisəli metod, təhlil-tərkib metodu, induktiv-deduktiv metod, dövri mətbuat nümunələrinin və elmi, fəlsəfi-pedaqoji-psixoloji materialların öyrənilməsi. Həmçinin, tədqiqat işində metodoloji əsasları pedaqoji fakt, hadisə və proseslər, tərbiyəyə dair nəzəri konsepsiyaların öyrənilməsi, Mövlanənin mənəvi dəyərlər haqqında fikirləri, həmçinin Şərq və Qərb pedaqogikası kontekstində araşdırılması üsulu təşkil edir.

**Müdafiəyə çıxarılan əsas müddəalar:**

1. Mövlanə Cəlaləddin Ruminin ideyalarını dövrün ictimai-siyasi hadisələri və pedaqoji hərəkat şərtləndirilmişdir, onun yaradıcılığı zəmanəsində baş verən ictimai-siyasi proseslərin və mədəni quruculuğun meyllərini doğru-düzgün əks etdirən bir mənbədir.

2. Mövlanə Cəlaləddin Rumi böyüyən nəslin tərbiyəsi, əxlaqi-mənəvi görüşləri, həmçinin tərbiyənin mahiyyəti, məzmunu, prinsip və metodları ilə bağlı orijinal fikirlər söyləmişdir.

3. Görkəmli pedaqoq və maarifçilərin uşaqlar üçün hazırladıqları milli dərsliklər (Aleksey Osipoviç Çernyayevskinin "Vətən dili", Firidun Bəy Köçərlinin "Balalara hədiyyə", Rəşid Bəy Əfəndiyevin "Uşaq bağçası", Abdulla Şaiqin "Qiraət kitabı", "Türk çələngi", "Türk ədəbiyyatı" və s.) Mövlanənin əxlaq kodeksi daşıyan hekayətləri ilə sıx bağlı olmuşdur.

**Tədqiqat işində ilk dəfə olaraq:**

– Mövlanə Cəlaləddin Ruminin ömür və sənət yolu, şəxsiyyət və mühit münasibətləri, əxlaq tərbiyəsinin səciyyəvi xüsusiyyətləri

pedaqoji sistemi daxilində öyrənilmişdir;

– Pedaqoji fikrin inkişafında Mövlanənin əsərlərinin çağdaş dövrümüzlə səsləşdiyi mütərəqqi fikirləri ilk dəfədir ki, fəlsəfə doktorluğu dissertasiyası səviyyəsində araşdırılmışdır;

– Mövlanə Cəlaləddin Ruminin yaradıcılığında tərbiyə prosesinin mahiyyəti, tərkib hissələri, vasitə və üsulları pedaqogikaşünaslığın elmi prinsipləri əsasında araşdırılmış, təhlil edilmişdir;

– Mövlanənin pedaqoji görüşlərində özünütərbiyənin mahiyyəti, səmərəli təşkilinin yolları, metodları və vasitələri, özünütərbiyənin istiqamətləri və motivasiyası kimi məsələlər öz əksini tapmışdır;

– Mövlanə Cəlaləddin Ruminin yaradıcılığında ağıl tərbiyəsinin məzmunu, vəzifə və yolları tədqiq olunmuşdur;

– Dostluq-yoldaşlıq tərbiyəsində əsas amil sayılan doğruluq, səmimilik, qayğıkeşlik, təmənnasızlıq və s. kimi ali keyfiyyətlərin mahiyyəti müəyyənləşdirilmişdir;

– Mövlanə Cəlaləddin Ruminin ailə tərbiyəsi ilə bağlı irəli sürdüyü mülahizələr, ailə tərbiyəsinin vəzifələri, ailədə uşaqların əxlaqi şüurunun formalaşması təhlil süzgəcindən keçirilərək dəyərləndirilmişdir;

– Mövlanə Cəlaləddin Rumi yaradıcılığında əmək tərbiyəsinin başlıca yolları, əməyin iqtisadi, sosial və əxlaqi mənasının mahiyyəti, məqsəd və vəzifələri müasir pedaqoji tələblər baxımından təhlil edilmişdir;

**Tədqiqatın elmi yeniliyi.** Mövlanə Cəlaləddin Ruminin yaradıcılığı pedaqoji araşdırmalar baxımından bu günə qədər ayrıca elmitədqiqat mövzusu olmamışdır. Mövlanə Cəlaləddin Ruminin həyatı və yaradıcılığı, mühiti, maarifçi görüşləri, həyatından verilən dəqiqələr də dissertasiyanın elmi yeniliyini səciyyələndirir. Mövlanə yaradıcılığında tərbiyə problemlərinə fraqmental baxış ilk dəfə bizim tərəfimizdən dissertasiya səviyyəsində araşdırılır və sistemləşdirilir. Onun ideyaları dövrün ictimai-siyasi hadisələri fonunda, tədqiqlər və müasirlərinin fikirləri kontekstində təhlil olunur.

**Tədqiqatın nəzəri əhəmiyyəti.** Tədqiqatın nəzəri əhəmiyyəti ondan ibarətdir ki, Mövlanə Cəlaləddin Ruminin pedaqoji ideyalarının elmi-nəzəri aspektdən tədqiq olunması, tərbiyəvi,

əxlaqimənəvi görüşlərinin kompleks halında tədqiq edilərək ümumiləşdirilməsi, ilk dəfə olaraq pedaqogika nəzəriyyəsi və tarixində onun "Divani-Kəbir", "Fihi ma fih", "Məclisi-Səba", "Məktubat", "Məsnəvi" kimi əsərlərinin təhlil və təfsiri ilə səciyyələnir.

**Tədqiqatın təcrübi əhəmiyyəti.** Tədqiqat işinin təcrübi əhəmiyyətini aşağıdakı kimi səciyyələndirmək olar:

1. Mövlanə Cəlaləddin Rumi yaradıcılığında əhəmiyyəti və aktuallığı ilə seçilən ideyalar müəllim, dissertant, doktorant və valideynlərin marağını artıracaqdır;
2. Tədqiqatın materiallarından "Pedaqogika", "Pedaqogika tarixi", "Azərbaycan məktəb və pedaqoji fikir tarixi" kursunun tədrisində, "Azərbaycan pedaqoji fikir antologiyası", "Azərbaycan məktəb və pedaqoji fikir tarixi oçerkləri"nin tərtibində və tədrisində, ensiklopediyaların hazırlanmasında, dərslik və dərs vəsaitlərinin işlənilməsində, təkmilləşdirilməsində geniş istifadə oluna bilər.
3. Tədqiqatın materiallarından istifadə etməklə gənc nəsildə tolerantlıq mədəniyyətini formalaşdırmaq mümkündür.
4. Tədqiqatın əsas müddəa və nəticələrindən məktəblilərin əxlaq tərbiyəsinin təşkili üzrə təhsil müəssisələrinin pedaqoq, psixoloq və humanitar fənn müəllimlərinin istifadəsi üçün məqsədə müvafiqdir.

**Tədqiqatın aprobasiyası və tətbiqi.** Dissertasiya Naxçıvan dövlət Universitetinin Elmi şurasının 21 yanvar 2013-cü il tarixli iclasında (protokol №4) təsdiq olunmuşdur.

Mövzu Pedaqogika və Psixologiya Problemləri üzrə Elmi Şuranın 13 fevral 2015-ci il tarixdə (protokol 1\2015) qeydiyyata alınmışdır. Təhsil müddətində alman dili və ixtisas fənlərindən minimum imtahanları verilmişdir. Tədqiqat işi ilə əlaqədar 13 elmi əsər (üçü xaricdə olmaqla) nəşr olunmuşdur. Mövzu ilə əlaqədar müxtəlif respublika və beynəlxalq səviyyəli elmi konfranslarda məruzələr edilmiş, irəli sürülən elmi müddəalar müdafiə olunmuşdur.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** İş Naxçıvan Dövlət Universitetinin "Pedaqogika və psixologiya" kafedrasında yerinə yetirilmişdir.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi və işarə ilə ümumi həcmi.**

Giriş 12 səhifə, 21725 işarə, I fəsil 34 səhifə, 63382 işarə, II fəsil 67 səhifə, 121529 işarə, nəticə 6 səhifə, 11776 işarə, istifadə edilmiş ədəbiyyat siyahısı 9 səhifə, 12034 işarə. Ümumi həcmi 130 səhifə, 219131 işarə.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiyanın "Giriş" hissəsində mövzunun aktuallığı, obyekti, predmeti, məqsəd və vəzifələri, metodoloji əsasları, tədqiqatın mənbələri, elmi yeniliyi, müdafiəyə təqdim olunan müddəalar, nəzəri əhəmiyyəti, praktiki əhəmiyyəti, aprobasiyası və tətbiqi, dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı, dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi və işarə ilə ümumi həcmi haqqında məlumat təqdim edilmişdir

Dissertasiyanın "**Cəlaləddin Ruminin həyatı, yaradıcılığı və tərbiyəvi baxışları pedaqoji problem kimi**" adlı birinci fəslində **"Cəlaləddin Ruminin həyatı və yaradıcılığı", "Cəlaləddin Rumi yaradıcılığında tərbiyə prosesinin mahiyyəti, tərkib hissələri, vasitə və üsulları", "Cəlaləddin Rumi yaradıcılığında özünütərbiyə üzrə fəaliyyətin pedaqoji stimullaşdırılması"** kimi səciyyələnmiş yarımfəsillər kimi geniş və əhatəli şəkildə tədqiq və təhlil olunmuşdur.

**"Cəlaləddin Ruminin həyatı və yaradıcılığı"** adlı birinci yarımfəsildə göstərilir ki, 1207-ci ildə Bəlx şəhərində dünyaya göz açan Cəlaləddin Rumi hələ balaca yaşlarından elmə, təhsilə maraqlı olmuş, ilk təhsilini Sultanul-Üləma ("Alimlərin Sultanı") adını qazanan atası Məhəmməd Bahaddin Vələddən almışdır. Uşaq yaşlarından yaşıdlarından fərqlənən Cəlaləddin kitablara meyl etmiş, atasının təşkil etdiyi elm məclislərində dinləyici olmuşdur. Cəlaləddinlə atası arasında məhz bu səbəbdən möhkəm bağ yaranmışdır. Lakin o dövr monqol yürüşləri və Bəlxdə baş verən hərc-mərcliklərə dözməyən, küsən, inciyən Vələd buradan köçmək qərarına gəlir. Cəlaləddin və ailəsinin hicrəti on iki il çəkmişdir. Bu illər ərzində şəhərlər ölkələr, iqlimlər keçərək fərqli millətlər,

mədəniyyətlər görərək ilk olaraq Nişapura, Bağdada, Məkkəyə, Mədinəyə, Şama, Hələbə getmiş, yol boyunca müəllimi olan atasından aldğı dini və elmi görüşləri də ağsatmamışdır. Kiçik yaşlarından Məkkəni, Mədinəni və Kufəni ziyarət edən Mövlanə müqəddəs torpaqlardan Həzrəti Məhəmmədin (s), İmam Əlinin (ə) və bu müqəddəslərin övlad və nəvələrinin ətrafa “müşk”, “ənbər”, “əbir” rayihəsi yayan iylərini almış, ciyərlərinə çəkmiş və özünü xoşbəxt, bəxtəvər hesab etmişdir.

Türkiyə Respublikasının şəhərləri sayılan Malatyaya, Erzincana, Sivasa, Kayseriyə, Niğdəyə və nəhayət 1222-ci ildə Larəndəyə (Karamana) çatır və yeddi il orada yaşayır. 1225-ci ildə Cəlaləddin Karamanda Fəridəddin Əttarın (Lalanın) qızı Gövhər Xatun ilə ailə qurur və iki oğlu (Sultan Vələd və Əlaəddin) dünyaya gəlir. Malyariyaya xəstəliyinə yoluxan Gövhər Xatun 1238-ci ildə Konya şəhərində vəfat edir. “İpçilik məscidi”ndə axundluq vəzifəsinə başlayan Mövlanə burada möizələr, vəzlər verir, müxtəlif yerlərə dəvətlər alır, günbəgün, saatbasaat onun tərəfdaşları, dinləyiciləri və tələbələrinin sayı artırdı.

Mövlanə Cəlaləddin Rumi ikinci dəfə Bizans rumlarından olan Kərra xatın adlı bir qadınla ailə qurmuş və izdivacdan iki övladı – qızı Məlikə və oğlu Əmir Alim Çələbi doğulmuşdur. Rumi Kərra xatının oğlu Yaqub və qızı Kimyanı da övladlığa qəbul etmişdir.

Cəlaləddin Ruminin daha da kamil insan kimi formalaşmasında özünün də qeyd etdiyi kimi Şəms Təbrizi böyük rol oynamışdır. Cəlaləddin Rumi ilə Şəms Təbrizinin dostluğuna oğlu Əlaəddinlə yanaşı qısqananlar, xoşagəlməz söz gəzdirənlər də olmuşdur. Əgər Şəms Təbrizi ilə Cəlaləddin Rumi qarşılaşmasydı bu gün Mövlanə deyə bir aqil olmazdı. Şəmsdən əvvəl sıradan bir sufi olan Rumi onun günəş kimi nurunu saçması ilə ruh dünyasında inqilab baş vermişdir. Mövlanədə zahidlik öz yerini arifliyə buraxmışdır. Mövlanə Şəms Təbrizini *“İffətin simvolu Həzrəti Yusifə, səbrin simvolu Həzrəti Yaquba, Allah ilə danışan və sevgisindən dolayı dağı yerindən oynadan Həzrəti Musaya, sevgini təmsil edən Həzrəti İsaya və yenə eyni şəkildə yaradıcı həqiqəti təmsil edən*

*Həzrəti Məhəmmədə, ...həqiqət yolunu izləyən Həzrəti Nuha, mələklərə və digər bir çox kəramət əhlinə bənzətmişdir*”[2].

Mövlanənın “Məcalisi Səba” (“Yeddi Məclis”), “Fihi Ma Fih” (“İçində içindəkilər vardır”), “Divani – Kəbir” (“Böyük Divan” və yaxud “Külliyati Şəmsi Təbrizi”), “Məktubat” və “Məsnəvi” kimi əsərlərin müəllifidir. Rumi “Məsnəvi” adlı əsərinə “Məsnəviyi-Şərifə “Saykal ul-Ərvah” (Ruhların cilası), “Hüsamnamə” (Hüsaməddin Çələbiyə mənsub kitab mənasında) kimi adlar da vermişdir.

“Mövlanə”, “Pir”, “İnsani-kamil”, “Vəlilərin vəlisi”, “Ən böyük şair” kimi adlarla tanınan Cəlaləddin Ruminin mənalı və şərəfli ömrü 1273-cü il dekabrın 17-də sona çatır.

I fəslin ikinci yarımfəsli **“Cəlaləddin Rumi yaradıcılığında tərbiyə prosesinin mahiyyəti, tərkib hissələri, vasitə və üsulları”** adlanır. Mövlanə Yaxın və Orta Şərq mütəfəkkirlərindən fərqli olaraq şəxsiyyətin formalaşmasında irsiyyət və mühit amilinə dair fikirlər bildirsə də tərbiyəni əsas mühüm amil kimi qəbul etmişdir. Mövlanə yaradıcılığının əsas bazasını insanların bir-birinə münasibəti və davranış normaları ifadə edir. Həmçinin, bu tərkib hissələrə davranış qaydaları, prinsiplər, kateqoriyalar və ideyalar daxildir. Bu gün həyata vəsiqə qazanmış tərbiyənin on tərkib hissənin hər biri (dünyagörüşünün inkişaf etdirilməsi, əxlaq tərbiyəsi, əmək tərbiyəsi, ideya-siyasi tərbiyə, fiziki tərbiyə, estetik tərbiyə, hüquq tərbiyəsi, iqtisadi tərbiyə, ekoloji tərbiyə, ağıl tərbiyəsi) Mövlanə yaradıcılığında yer tapsa da (nisbi mənada) biz burada əsasən daha çox cəmiyyət və kollektiv görüş baxışlarını, əqli, əxlaqi, əmək tərbiyəsi və s. bu kimi fikir və görüşləri müəyyənləşdirmişik. Mövlanə davranış qaydalarını insanın ailədə, cəmiyyətdə və kollektivdə bir-birinə münasibəti baxışında, davranış qaydalarını tənzim etdiyi münasibətlərin xarakterində görür. Prinsipdə bəşərin ilk vəziyyətini, əsas köklərini və ən çox nəzəriyyələr sistemini əks etdirir. Əxlaq kateqoriyalarında isə ümumi şəkildə insanlar arasında, insanla cəmiyyət arasında mənəvi əlaqələri təhlil obyektinə çevirir.

[2] Ürkmez Melahat. Şems-i Tebrizi. / Melahat Ürkmez. –İstanbul: Nüve kültür merkezi yayınları, –2008. s.95

Yaxşılıq, ədalət, borc, şərəf, layaqət, vicdan, xoşbəxtlik və s. kimi əxlaq kateqoriyalarını yaradıcılığı boyu ifadə edir.

Mövlanəşünaslıqda tərbiyəçi (Mövlanə) tərbiyə olunanı (tələbəsini və ya oxucusunu) sözün qüdrətindən doğan vasitə və üsullarla tərbiyə edir. Sözü, onun mahiyyətini, ifadə tərzini insanın psixologiyası, həyata baxışı, insanlara münasibəti ilə bağlamışdır. Tərbiyə işində fərqli mövqedən yanaşılacaq və ya istifadə olunacaq üsullar çoxdur. Mövlanə yazır ki, tərbiyəçi (valideyn, müəllim və s.) sözü elə üsul, tərz vasitəsilə deməlidir ki, o söz səmərəli və uzunömürlü olsun. Düzdür, Mövlanə tərbiyənin üsullarını tərz və vasitələr sistemi adlandırmasa da, ancaq belə priyomlardan istifadə etmişdir. Təbiyəçini daşa, atəşə bənzədən Mövlanə tərbiyə olunan uşağı (şagirdi, tələbəni) dəmirə bənzədir. Sözü güclü təsir qüvvəsi hesab edən Mövlanə deyir ki, sözü bəzən nağılla, bəzən sözlə, bəzən də sadəcə baxışlarınla elə deməlisən ki, qarşındakının mənəviyyatına, ruhuna, əqlinə, hissinə təsir etsin. Sözü demək mümkündür, lakin sözü elə anda, zamanda deməlisən ki, o söz tərbiyəvi əhəmiyyətini qorusun, ucuz sözə çevrilməsin.

*"Dil özü bir daş kimi, bəzən də atəş kimi,*
*Dildən çıxan sözlərsə, hədəfdəki, daş kimi.*
*Dağı – dəmirə ey dost, sən vurma heç vaxt yersiz,*
*Bəzən nağılla – sözlə, bəzən səssiz-səmirsiz"*[3].

Mövlanə yalnız bir şair deyil, həm də bir alim, müəllim, tərbiyəçi kimi müsbət keyfiyyətləri təlqin etdiyi kimi, həm də insanları şər işlərdən kənar olmağa, doğruluğa, yaxşılıq etməyə çağırır.

Mövlanə elmi pedaqogikada tələblərdə vahidlik və kollektiv təsirin vahidliyinin gözlənilməsi prinsipini əsas götürür, prosesdə özünü büruzə verən ziddiyyətlərin aradan qaldırılması baxımından vəhdəti gözləməyi zəruri sayaraq vahid mövqedən çıxış edir. Mövlanənın yaradıcılığındakı təsvir etdiyi tərbiyə üsulları aşağıdakı kimi ümumiləşdirmək mümkündür: 1) əxlaqi görüşlərin

[3] Cəlaləddin Rumi Mövlana (Tərcümə Səfər Hökməli oğlu Şirinovundur). Məsnəviyyat Məsnəviləri. / Mövlana Cəlaləddin Rumi. –Bakı: –2007. s.142

formalaşdırılması; 2) şüurun və əqidəni formalaşdırılması; 3) düzgün davranış və vərdişlərin yaradılması; 4) inandırmaq və alışdırmaq; 5) rəğbətləndirmək və cəzalandırmaq; 6) tərbiyələndirici situasiya yaratmaq və s.

Yarımfəsil ümumiləşdirilərkən göstərilir ki:

– Mövlanə tərbiyədə vasitə, üsul və tərzlərdən faydalanmağın birinci mahiyyətini sözün qüdrətində tapmışdır. Sözü "insanın əbədi dostu", "can məməsindəki süd" hesab etmişdir.

– Mövlanə Cəlaləddin Rumi təbiyəçini daşa, atəşə bənzədirsə tərbiyə olunanı da dəmirə bənzətmişdir.

– Mövlanə Cəlaləddin Rumi sözü bəzən nağılla, bəzən sözlə, bəzən də sadəcə baxışlarla deməyi bacaranları, həmçinin sözü anında, zamanında deməyi bilənləri əsl pedaqoq saymışdır.

– Mövlanə Cəlaləddin Rumi uşaqlara hələ balaca yaşlarında dünya malına qəlbdə məhəbbət bəsləməməyi, tamahkarlığa nifrət bəsləməyi məsləhət görmüşdür.

– Mövlanə Cəlaləddin Rumi peyğəmbərlərin, imamların, sufilərin nümunə dolu həyatlarından bəhrələndiyi kimi, öz şəxsi həyatındakı nümunə üsulları ilə ətraf aləmə bir örnək olmuş, tərbiyə olunanlara müsbət təsir göstərmişdir.

– Mövlanə Cəlaləddin Rumi yaradıcılığında tətbiq olunan tərbiyə üsullarından – tövsiyə, məsləhət, təqdiretmə, alqışlama, öyüd-nəsihət, inandırmaq və alışdırmaq kimi üsullardan geniş istifadə etmişdir.

**"Cəlaləddin Rumi yaradıcılığında özünütərbiyə üzrə fəaliyyətin pedaqoji stimullaşdırılması"** adlanan üçüncü yarımfəsildə isə özünütərbiyə şəxsiyyətin inkişafının müəyyən səviyyəsi, onun özünüşüuru, onun öz davranışının digər insanların davranışı ilə müqayisədə şüurluluğunun təhlili kimi təhlil-tədqiq obyektinə çevrilmişdir. Özünü tərbiyənin istiqamət imkanları genişdir. Mövlanə Cəlaləddin Rumi özünütərbiyə məsələlərinə həm şəxsi həyatında, həm də yaradıcılığında böyük önəm vermiş və təlim, tərbiyə məsələsinə ciddi yanaşmışdır. "Özünü izah et, "Quran"ı deyil" – deyən Rumi insanı ömrünün sonuna kimi tərbiyə almasını, inkişaf etməsini və kamilləşməsini vacib şərt hesab edir. Onun fikrincə, özünütərbiyənin məqsədi insanı azad iradəyə malik müstəqil

varlıq kimi formalaşdırmaqdan ibarətdir. İnsan yalnız tərbiyə vasitəsi ilə əqli-mənəvi varlıq olur. Özünütərbiyə insanın öz-özü ilə çətin və qıcıqlandırıcı mübarizəsidir. İnsan öz nəfsini, tamahını, qısqanclıq hisslərini qorumalı, hirslərini boğmalı, səbir etməli, əqli və iradəsinin köməyi ilə öz hisslərinə qalib gəlməyi bacarmalıdır. Mövlanə özünütərbiyənin inkişaf tarixi ilə bəşər mədəniyyətinin tarixini dialektik şəkildə birləşdirməyə cəhd edir. Mövlanə hər bir insanın inkişafına ümumbəşəri ruhun tarixi inkişafında bir məqam kimi baxır. İnsan yaşadığı toplumdan kənarda azad ola bilməz, deməli, məsələ cəmiyyətin və insanın özünüdərkə doğru hansı yollarla, üsullarla irəliləməsini müəyyənləşdirməkdən ibarətdir.

Bu mənada, Mövlanənın "Məsnəvi" və "Fihi ma fih" kimi adlı traktatlarında insanın özü-özünün mənəvi dünyasını zənginləşdirəcək hekayələr öz əksini tapmışdır.

*"Bizim sözümüz və əməlimiz çöldəki davranışdır"*[4]– deyən Mövlanənın yaradıcılığından aydın olur ki, özünütərbiyə prosesi heç də hamı tərəfindən anlaşılan bir proses deyildir. Bunun üçün insan baş alçaqlığı gətirən keyfiyyətlərdən (xeyrə və şərə laqeydlik, tənbəllik, ikiüzlülük, yaltaqlıq, yaltaqcasına tərifləmək, şəxsi əqidənin olmaması, yalanla dinməzcə razılaşmaq, səhvlərində təkidlilik, lovğalıq, boşboğazlıq, yalançılıq, alçaqlıq, dostluqdan imtina (başqaları ona qarşı olanda), insanda xeyirxah başlanğıca inamsızlıq, riyakarlıq, kinlilik, zəiflərə və arxasızlara qarşı qəddarlıq, acgözlük və qarınqululuq, xəsislik və s.) uzaq olmalıdır. Ümumiyyətlə, özünütərbiyə prosesinə şəxsiyyətin mən və məni ilə mübarizəsi də demək olar. Şəxsiyyət özündəki çatışmazlıqları, yaxud mənfi xüsusiyyətləri dərk etməyi bacarmasa yəni özünü tənqid edə bilməsə, bu proses mümkünsüz olar. Müəyyən həyat yolu keçmiş insanların təcrübəsi özünü təkmilləşdirən insana böyük köməklik göstərir. Həmçinin, şəxsiyyətin bu mənada özü ilə mübarizəsində başqa vasitələrdən istifadə olunmalıdır.

Mövlanə Cəlaləddin Ruminin özünütərbiyə haqqındakı fikirlərini aşağıdakı kimi səciyyələndirmək olar:

---

[4] Cəlaləddin Rumi Mövlana (Tərcümə Səfər Hökməli oğlu Şirinovundur). Məsnəviyyat Məsnəviləri. / Mövlana Cəlaləddin Rumi. –Bakı: –2007. s.87

– Mövlanə Cəlaləddin Rumi yaradıcılığı boyu əxlaq, insanın özü ilə, insanlarla və ümumilikdə bütün canlı aləmlə münasibət və davranışlarını ehtiva edən dəyərlər toplusu yaratmışdır;

– Cəlaləddin Rumi mənəvi-əxlaqi kamilliyə və insani davranışa çağırışı, əxlaqi keyfiyyətlərin təbliği məsələlərini ən müasir mənada ictimai hüquq bərabərliyi mövqeyindən təhlil və təsvir etmişdir;

– Mövlanənın özünütərbiyə haqqındakı fikirləri Azərbaycan və ümumən Şərq pedaqoji fikir tarixinə yeni bir ciğir salmişdir.

Dissertasiyanın **"Cəlaləddin Ruminin pedaqoji ideyalarında tərbiyə məsələləri"** adlanan II fəslin birinci **"Cəlaləddin Rumi əxlaq tərbiyəsi haqqında"** yarımfəslində Mövlanə yaradıcılığından əxlaqın – insanın mənəvi keyfiyyətini, cəmiyyətə və başqalarına qarşı münasibətini müəyyən edən normaları, davranış qaydaları; əxlaqi şüur – əxlaqi bilik və təsəvvürlərin (yəni nəyin yaxşı, xeyir, halal, nəyin isə pis, şər, haram olması barədəki bilik və təsəvvürləri), görüş və anlayışları şəxsiyyət yönümü baxımından təhlil süzgəcindən keçirilmişdir. Həyatda, məişətdə, başqaları ilə münasibətdə, rəftar və davranışda nə demək olar, nə olmaz? Nə yaxşıdır, nə pisdir, nə şərdir? Nə ədalətlidir, haqqdır, halaldır, nə ədəbsizlikdir, nahaqdır, haramdır? Nə kimi işlər fəzilətdir, nələr rəzilətdir, qəbahətdir, günahdır? Bu cür sualların cavabları (ümumiyyətlə, əxlaqi kateqoriyaların mahiyyəti ilə) Mövlanə yaradıcılığında əhatəli şəkildə öz əksini tapmışdır.

Mövlanə Cəlaləddin Ruminin əxlaq və əxlaq tərbiyəsi haqqındakı fikir və görüşləri aşağıdakı şəkildə ümumiləşdirilmişdir:

– Mövlanə Cəlaləddin Rumi hər bir evdə kitab rəfinin bəzəyi sayılan əsərləriylə əxlaq tərbiyəsinin hər incə məğzinə nəzər salmış, insanı, onun əqli və idrakını mədh etmiş, şəxsiyyətini yüksəklərə qaldırmış;

– Mövlanə Cəlaləddin Rumi əxlaq tərbiyəsinin məzmununu təşkil edən mənəvi keyfiyyətləri (xeyirxahlıq və yaxşılıq, düzlük və doğruluqdur, cəsarət və mərdlikdir, sadəlik və təvazökarlıqdır və **s.**) qruplaşdıraraq onları əxlaqın yeganə meyarı adlandırmış;

– Mövlanə Cəlaləddin Rumi yaradıcılığında düzlüyü işi ilə, doğruluğu sözü ilə həyata keçirənləri sərvət sahibləri adlandırmış, baş

tacı hesab etmiş, ikiüzlüləri, yalançıları, əyri və oğruları isə mənəviyyatca yoxsul hesab etmiş;

– Yaradıcılığında sadəlik və təvazökarlıqdan geniş bəhs edən Mövlanə mənəvi tərbiyənin digər komponentləri sayılan nəzakətlilik, ədəblilik, xeyirxahlıq, səxavətlilik, əhdə sadiqlik, haqqın tərəfində olmaq kimi keyfiyyətlərdən bəhs etmiş və əxlaq tərbiyəsinin məzmununa çevirmiş;

– Mövlanə Cəlaləddin Rumi əxlaq kodeksi daşıyan əsərlərində cəsarət və mərdliyi yüksək əxlaqi keyfiyyətlər olmaqla bərabər, həmçinin mühüm əxlaqi hərəkət və dəyər hesab etməklə yanaşı, mübarizəsiz həyat da təsəvvür edə bilməmiş;

– Həyatda hər cür çətinliklərə səbr və əzimlə qalib gələnləri, bütövlükdə xalqın qayğısını çəkənləri, elinə-obasına naqis gözlə baxan ünsürlərə amansız olanları mərd və mübariz adlandırmışdır.

**“Cəlaləddin Rumi yaradıcılığında ağıl tərbiyəsinin qoyuluşu”** mövzusu II fəslin ikinci yarımfəslinin tədqiq-təhlil obyektidir. Bu yarımfəsildə qeyd edilir ki, Mövlanə Cəlaləddin Rumi yaradıcılığı boyu ağıla və ya əqli inkişafa xüsusi diqqət vermis, onu insan həyatında ön sıraya çəkmişdir. Ağıl insan psixikasının bir əlamətidir və beynin məhsuludur. Ağıla ülvi bir qüvvə kimi baxan Mövlanə ictimai-iqtisadi-siyasi məsələlərin həllində ağlı rəhbər tutmağı zəruri hesab etmiş, əqli inkişafı irsiyyət və tərbiyənin mühüm bir cəhəti kimi təsvir etmişdir. Mövlanə yaradıcılığında ağıl anlayışının mahiyyətindən çıxış etmiş, ağıl tərbiyəsinin məzmununu, vəzifə və yollarını dəqiqləşdirməyə üstünlük vermişdir. XVIII əsrin Avropa flantropistləri “Pedaqogikanın təcrübəsi” əsərinin müəllifi Ernest Xristian Trapp, “Yeni Robinzon”, “Uşaq və gənclər üçün əsərlər külliyyatı” kimi əsərlərin müəllifi İoaxim Henrix Kampenin və sosial utopist, o cümlədən “Keşişlərin müqəddəsləşdirdiyi nigahlar haqqında mühazirələr”, “Yeni əxlaq dünyası haqqında”, “İnsanın yer üzərində yeni yaşayışı” kimi əsərlərin müəllifi Robert Ouen və b. fikirlərinin əsas mənbəyini sanki Mövlanədan götürmüşlər. Çağdaş dövrün hər bir valideyn və müəllimi övlad və şagirdlərinin əqlini inkişaf etdirmək işində çox mühüm vasitə kimi Mövlanənın hikmət dolu sözlərindən istifadə edərlərsə bu onların ancaq uğur qazanmasına vəsilə olar. Mövlanə öz mükəmməl yaradıcılığı ilə

ağıllılığı, ona əks olan keyfiyyətləri pisləmək yolu ilə də qiymətləndirməyi bacarmışdır.

**"Humanizm, dostluq-yoldaşlıq tərbiyəsi"** üçüncü yarımfəsildə Mövlanə Cəlaləddin Ruminin "Məsnəvi", "Divan-ı Kəbir", "Fihi ma fih" kimi dünya şöhrətli əsərlərində dostluq-yoldaşlıq və humanizm kimi ideya və görüşləri təhlilə cəlb olunur. Dostluq aşiqi Mövlanə dostluğu böyük nemət hesab edərək dostu necə qiymətləndirməyin, onunla necə rəftar etməyin yolları haqqında maraqlı fikirlər söyləmişdir. Oğlu Bahəddin Vələdə yazdığı əxlaq dolu məktubunda oxuyuruq: *"Oğlum Vələd! Əgər əbədiyyən cənnətdə qalmaq istəyirsənsə hərkəslə dost ol, heç kimə düşmənlik bəsləmə. Məlhəm və mum kimi ol, iynə kimi sərt olma. Heç kimsədən sənə pislik gəlməsini istəmirsənsə, sən də pis düşüncəli olma. Çünki bir insanı dostluqla xatırlayarsan, daima sevinc içində olarsan. Deməli bu sevinc cənnətin elə özüdür. Amma bir insanı, düşmənliklə xatırlayarsan, daima üzüntü içində olarsan. Bu da cəhənnəmin elə özüdür. Çünki könüldən dilə yol olduğu kimi, dildən də könülə yol vardır"*[5]. Oğlunun timsalında bütün insanlığa göstərdiyi yolla Mövlanə dostu ikinci mən hesab etmişdir. Necə ki, Birləşmiş Millətlər Təşkilatının Konstitusiyası din, dil, irq və ya rəng qarşıdurmasına qarşı çıxırsa, hələ Mövlanə 700 il bundan öncə insanlar arasında bu cür nifaq salınmağın əleyhinə olmuşdur. "Nə olursan ol, yenə gəl" çağırışı bu təməl düşüncəsi prinsipindədir. Ruminin Şəms Təbrizi ilə olan dostluğu, bir-birinə möhkəm məqsəd birliyi, xeyirxah, mütərəqqi qayələrə bağlanmaqla hər cür xırda şəxsi hisslərdən uzaq əməl, məslək dostluğu nümunəsi iki bədəndə bir can kimi təsvir olunmuşdur. Mövlanə Cəlaləddin Rumi yaradıcılığında humanizm, dostluq, yoldaşlıq kimi keyfiyyətlər çox dərin, geniş və hərtərəfli əks olunmuşdur. Mövlanə "könül dostları"nı yaradıcılığında mədh etmiş, pedaqoji fikir tarixində əxlaqı, mənəviyyatı zənginləşdirən fikirlər söyləmişdir. O, gənclərə dost üçün ürəyi bir ümman nümunəsinə çevirməyi, dosta ölməzlik diləməyi təbliğ etmişdir.

---

[5] Mövlana Cəlaləddin Rumi. / –Ankara: Kültür Bakanlığı Yayınları, –2000. s.151

II fəslin dördüncü, yəni **“Ailə həyatına hazırlığın tərbiyə edilməsi”** yarımfəsli də başqa yarımfəsillər kimi yeni tədqiqat nəticəsi hesab olunmalıdır. Çünki Mövlanə yaradıcılığındakı ailə və ailə münasibəti məsələlərini təhlilə cəlb etməyə təşəbbüs ilk dəfə bizim tərəfimizdən göstərilmişdir.

Mövlanə Cəlaləddin Rumi yaradıcılığında ailə, sevgi məsələlərindən bəhs edərkən ağıla dəyər vermiş, ağılla qurulan ailəni yüksək qiymətləndirmişdir. Mövlanə ata və ananı cəmiyyətin özəyi, ilkin birliyi hesab edir. Ata və ana münasibətlərinə yüksək qiymət verən Mövlanə atanı göy üzü adlandırırsa, ananı da yer üzü kimi dəyərləndirərək yazır: *“Ağıla görə göy üzü kişi və yer üzü qadındır; onun atdığını bu bəslər. Hərarəti qalmayınca o göndərər; islaqlıq və nəm qalmayınca o verər. Yer üzü ev xanımlığı edər; doğumlara və süd vermələrə girişər. Eyləysə yer üzünü və göy üzünü ağıllı bil; çünki ağıllıların işini görərlər”*[6]. Mövlanə ailədə tərbiyənin nəzəri əsasları, ailədə məzmun və funksiya, ailə tipləri və onun xüsusiyyətləri, dövrlər və aspektlər, ailə tərbiyəsinin prinsip və metodları kimi problemlerin tədqiqatı ilə məşğul olmasa da və ya problem kimi araşdırmasa da, ailə həyatına hazırlıq, ailə qurmaq, onu möhkəmləndirmək, ailədə psixoloji iqlim yaratmaq, cəmiyyətin inkişafı baxımından onu qoruyub saxlamaq və s. (Ailə həyatına hazırlığı necə başa düşürsən?; Ailə qurmaq üçün hansı şərtlər lazımdır? və sair kimi) məsələləri öz dünyagörüşü səviyyəsində şərh etmişdir.

Mövlanə ailə münasibətlərində, o cümlədən ailələrin inkişafı tarixində uşaqların tərbiyəsi sahəsində baş verəcək dəyişikliklərə humanizm prinsipindən yanaşaraq, ailə tərbiyəsi, ana, ata, övlad məhəbbəti, şan, şöhrət, mülk, elm, vətən və s. kimi məsələlərin dəyərləndirilməsindən sistemsiz də olsa maraqla bəhs etmişdir. Biz də Mövlanə yaradıcılığındakı yanaşmalardan faydalanaraq yaş dövrlərini aşağıdakı şəkildə müəyyənləşdirə bilərik:

[6] Cəlaləddin Rumi Mövlana (Tərcümə Səfər Hökməli oğlu Şirinovundur). Məsnəviyyat Məsnəviləri. / Mövlana Cəlaləddin Rumi. –Bakı: –2007. s.323

1.Bəşər övladının yaranması (rüşeym halından başlayaraq – işıqlı dünyaya gələcək 9 aylıq dövrə qədər) dövrü. 2. Çağalıq dövrü. 3. Əqli dövrü. Ədəb, ərkan, elm dövrü (müstəqil fəaliyyət dövrü).

Mövlanə yazır ki, "can övladın" dünyaya gələn zaman o, həya və ismətli, namuslu və sədaqətli, təmizkar və səliqəli, qeyrətli və şərəfli ananın südü ilə qidalanmalıdır. Pis, əxlaqsız, bəd niyyətli, "Şeytan" qadının südündən uşağı qətiyyətlə uzaq tutmağı məsləhət edən Mövlanə poetik dillə deyir:

*Sən öz can övladını, qoru Şeytan südündən,*
*Çalış onu eylə sən, bir mələk südü əmən*[7].

Mövlanə göstərir ki, uşaq hələ ana bətnində olarkən ananın yaşadığı duyğu analizatorları uşağa da sirayət etmiş olur. Belə ki, ana saf ruhlu, saf düşüncəli, şən, gülərüz, fərəh dolu anlar, dəqiqələr, saatlar, günlər, aylar keçirərsə bətnindəki uşaq da o ruhda bəslənər, mayalanar, qidalanar. Yox, əgər ana qaş-qabaqlı, tutqun, bədbin, süstdürsə, sadalanan bu cür fleqmatiklik uşağa da sirayət etmiş olacaq, işıqlı dünyaya gəldiyi zamandan onda da öz əksini tapmış olacaqdır.

*Nə qədər ki, ürəyin dolu qara fikirlə,*
*Bil ki bacı olursan, qaraləin bir divlə*[8].

Cəlaləddin Rumi yaradıcılığında ailə həyatına hazırlığın tərbiyə edilməsi haqqında fikir və görüşlərinə aşağıdakı şəkildə yekun vurulmuşdur:

1. Mövlanə Cəlaləddin Rumi ailə qurmağın, uşaq böyütməyin, nəsil yetişdirməyin zəruri olduğunu, ailədə əlbir işə, ailə üzvlərinin bir-birinə qarşılıqlı köməyinə yüksək dəyər vermişdir;
2. Oxucusunu heyrətdə qoyan Mövlanə Cəlaləddin Rumi ailə tərbiyəsində vəfalı olmağı başlıca amil saymış, ailədə övladı cövhər, gözəl nemət adlandırmışdır;
3. Mövlanə anada, qadında ağılı, iffəti (isməti), həyanı və nəfsibütövlüyü zəruri hesab etmişdir;
4. Halallıq tərbiyəsi keyfiyyətlərinin ailədə uşaqlara tərbiyə edilməsinin səmərəli yollarının təsvirini yaratmışdır;

---

[7] Cəlaləddin Rumi Mövlana (Tərcümə Səfər Hökməli oğlu Şirinovundur). Məsnəviyyat Məsnəviləri. / Mövlana Cəlaləddin Rumi. –Bakı: –2007. s.146
[8] Yenə orda. s.146

5. Mövlanə şah əsəri sayılan "Məsnəvi"də valideynlərdə mənəvi təmizliyə, əxlaqi saflığa, vicdan paklğına, sədaqətli, vəfalı olmağa böyük əhəmiyyət vermiş, həmçinin valideynlərdən uşaqları hələ balaca yaşlarından düzlüyə, doğruluğa, vicdanlı olmağa öyrətməyi məsləhət görmüş, ailədə uşaqları alicənablığa, təvazökarlığa yiyələndirməyi əhəmiyyətli hal kimi əsaslandırmışdır.

Dissertasiyanın II fəslinin beşinci yarımfəsli **"Əmək tərbiyəsi haqqında"** məsələləri ilə tamamlanır. Əməksevərliyi, əmək adamlarına hörməti bütün yaradıcılığı boyu təqdir və təbliğ edən Mövlanə, əmək fəaliyyətinə ilk növbədə şəxsiyyətin formalaşmasına təsir göstərən əsas amillərdən biri kimi baxmışdır. Mövlanə əməyin əhəmiyyətini onun müasir elmi pedaqogikada qeyd olunan bütün mənalarını (iqtisadi, sosial, əxlaqi, fizioloji, psixoloji, idrak, tərbiyəvi) baxımdan yüksək qiymətləndirməklə yanaşı, daha qabağa gedərək *"Zəhmətlər rahatlığın əsasıdır"*[9] ideyasını irəli sürmüşdür. "Məsnəvi"də sözün qiymətindən və bu dünyanın hikmətlərindən bəhs edərkən ulu Mövlanə insan həyatının əsasını təşkil edən əməklə bağlı fikrini belə ifadə edir: "Buğdanı torpaq altına atarlar, sonra torpağından sünbül edərlər. Onu daha sonra dəyirmanda üyüdərlər; dəyəri artar və cana can qatan çörək olar. Yenə çörəyi dişlərlə çeynəyərlər; ağıl, can və zəka anlayış olar. Yenə o can eşqdə yox olunca, əkindən sonra "Əkinçilərin xoşlarına gələr" olar"[10]. Mütəfəkkir şairin əqidəsinə və möhkəm inamına görə belə əmək fəaliyyəti zehnə, əqlə, hikmətə, yaradıcılığa, əxlaqa təsir edir, xüsusilə, şəxsiyyətin formalaşmasında, fiziki keyfiyyət və bacarıqlarının inkişafında əvəzsiz rol oynayır.

Mövlanə Cəlaləddin Rumi yaradıcılığında əmək və əməkçi insanların tərənnümünə baxış və görüşünə aşağıdakı şəkildə yekunlaşdırmışıq:

– Mövlanə Cəlaləddin Rumi yaradıcılığında əmək tərbiyəsi ilə bağlı mövcud vəziyyəti müəyyənləşdirmiş;

[9] Cəlaləddin Rumi Mövlana. Məsnəvi. Üç cilddə. I cild (I və II dəftər). / Mövlana Cəlaləddin Rumi. –Naxçıvan: "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyi, –2012. s.381
[10] Yenə orada. s.234

– Mövlanə Cəlaləddin Rumi əmək tərbiyəsi üzrə işin təşkili formalarını aşkar etmiş;

– Mövlanə Cəlaləddin Rumi halal əmək anlayışında ictimai, pedaqoji-psixoloji, fəlsəfi-sosioloji mahiyyətə aydınlıq gətirmiş;

– Mövlanə Cəlaləddin Rumi əməyə xor baxanları insanlıq sifətini itirənlər, özgələrinin əməyini mənimsəyənlər, məzlumların haqqını çeynəyənlər, bəşərin bağrını qan eyləyən zalımlar adlandırmış və eyham dolu sözlərlə acılamış;

– Mövlanə Cəlaləddin Rumi şəxsiyyətlə zəhmətin ayrılmaz vəhdət təşkil etdiyini, insanın həyatında, əxlaqında, xarakterində zəhmətin misilsiz rol oynadığını düzgün təzahür etmiş və bu həqiqəti müdrik sadəliklə aforizmləşdirmişdir.

**"Mövlanə Cəlaləddin Rumi yaradıcılığında tərbiyə problemləri"** üzrə apardığımız tədqiqat işinin **nəticə** hissəsində alınan elmi nəticələr qiymətləndirilmiş, dissertasiyanın strukturundan çıxış edilərək hər iki fəslin daxilindəki yarımfəsillərin təhlilindən alınmış elmi qənaətlər, üzə çıxan elmi-nəzəri əsaslar, aktuallıq kəsb edən elmi ideyalar və perspektivlər aşağıdakı kimi şərh edilmişdir:

1. Mövlanə Cəlaləddin Rumi balaca yaşlarından atasından aldığı həyat və elm dərslərindən yaşadığı mühitin bütün ictimai-siyasi məsələlərini diqqətlə izləmiş, yaradıcılığı ilə öz zəmanəsindəki ictimai-siyasi məsələlərə münasibət bildirmişdir. Mövlanə Cəlaləddin Rumi "Sələfləri bütünlükdə öyrən ki, yazdığın onlarınkına oxşamasın" fikrini rəhbər tutaraq Platonun, Aristotelin, Həllac Mənsurun, İbn Sinanın, Əbülqasım Firdovsinin, Xaqani Şirvaninin, Nizami Gəncəvinin və digər mütəfəkkir alim və pedaqoqların yaradıcılığı ilə yaxından tanış olmuş, "Divani-Kəbir", "Fihi ma fih", "Məclisi-Səba", "Məktubat", "Məsnəvi" kimi adlı məşhur əsərlərini tamam başqa yaradıcılıq fonunda ərsəyə gətirmişdir. Bədii-estetik mahiyyət kəsb edən bu əsərlərin nəzəri imkanları hər bir tərbiyəçi müəllimdə, valideyndə, ümum oxucu kütləsində ən ülvi insani hisslər, arzu və ideyalar aşılamaqdadır.

2. Mövlanə yaradıcılığında tərbiyənin mahiyyəti, tərkib hissələri, vasitə və üsulları onun yaradıcılığının əsas bazasını təşkil etmişdir. Tərbiyə işində geniş istifadə edilən üsullardan: əxlaqi söhbətlərdən, nümunələrdən, tövsiyə, məsləhət, təqdiretmə,

alqışlama, öyüd-nəsihət, inandırmaq və alışdırmaq, rəğbətləndirmə və cəzalandırma kimi üsullardan məharətlə istifadə etmiş, prosesdə özünü büruzə verən ziddiyyətlərin aradan qaldırılması baxımından vəhdəti gözləməyi zəruri sayaraq vahid mövqedən çıxış etmişdir. Mövlanə peyğəmbərlərin, imamların, sufilərin nümunə dolu həyatlarından o qədər bəhrələnmişdir ki, öz şəxsi həyatındakı nümunə üsulları ilə tələbələrinə bir örnək olmuş, tərbiyələrinə böyük müsbət təsir göstərmişdir.

3. Mövlanə özünütərbiyənin inkişaf tarixi ilə bəşər mədəniyyətinin tarixini dialektik şəkildə birləşdirməyi əsas məqsəd hesab etmişdir. Özünü tərbiyənin istiqamət imkanları sayılan: özünüsınama, özünənəzarət, özünütəhlil, özünüinandırma, özünüqiymətləndirmə, özünəhesabat, özünətələb, özünəvəd, özünütənqid, özünüöhdəlik, özünüvadaretmə, özünüsaxlama, özünətəlqin, özünümüşahidə, özününizamlama, özünüstimullaşdırma və s. kimi məsələlərə Mövlanə Cəlaləddin Rumi həm şəxsi həyatında, həm də yaradıcılığında böyük önəm vermiş və təlim, tərbiyə məsələsinə ciddi yanaşmışdır. İnsanda mənəviyyat olmasa özünütərbiyə prosesi baş tuta bilməz deyən Mövlanə yaradıcılığında özünütərbiyəni insanın nadanlıqdan kamilliyə doğru keçdiyi yol kimi təqdim etmişdir.

4. Cəlaləddin Rumi əxlaq tərbiyəsi haqqında görüşlərində insanın mənəvi keyfiyyətini, cəmiyyətə və başqalarına qarşı münasibətini müəyyən edən normaları, davranış qaydalarını, ictimai şüurun formalaşmasını əsas amil hesab etmişdir. Mövlanə, Şərq xalqlarının yüksək dəyər verdiyi xeyirxahlıq və yaxşılığı, düzlük və doğruluğu, cəsarət və mərdliyi, sadəlik və təvazökarlığı əxlaqın yeganə meyarı adlandırmış, mənəvi tərbiyənin digər komponentləri sayılan nəzakətlilik, ədəblilik, xeyirxahlıq, səxavətlilik, əhdə sadiqlik, haqqın tərəfində olmaq kimi keyfiyyətlərdən geniş bəhs etmiş, həmçinin ikiüzlüləri, yalançıları, əyri və oğruları isə mənəviyyatsız hesab etmişdir.

5. Mövlanə Cəlaləddin Rumi ağıl tərbiyəsi ilə bağlı çox əhəmiyyətli fikirlər söyləmiş, ümumiləşdirmələr aparmış, ağlın əlamətlərini aydın və qabarıq şəkildə ifadə etmişdir. “Məsnəvi”də pedaqoji-psixoloji, fəlsəfi söhbətlər edən şair özü yaradılış haqqında,

kainatın, təbiətin və insan ruhi aləminin sirləri barədə, hər şeydən əvvəl, bir alim, mütəfəkkir, pedaqoq kimi ağılla mühakimə yürüdür. Mövlanə etiqada görə ağla üstünlük vermiş, ancaq ağlın təsdiq edə biləcəyini, ancaq "ağılla aşkar olanı" gerçəklik saymağın mümkünlüyü haqqında fikirlər irəli sürmüş, varlığın sirlərini xəyal, təsəvvür yolu ilə deyil, ağılla dərk etməyin mümkünlüyünü və ən düzgün yol olduğunu söyləmişdir.

6. Mövlanə Cəlaləddin Ruminin "Məsnəvi", "Divan-ı Kəbir", "Fihi ma fih" kimi dünya şöhrətli əsərlərində dostluq-yoldaşlıq və humanizm tərbiyəsi haqqında görüşləri geniş yer tutmuşdur. Mövlanə şəxsi həyatında dostu Şəms Təbrizi ilə yanaşı, Çələbi Hüsaməddin, Səlahəddin Zərkubi, Sədrəddin Konəvi, Seyyid Bürhanəddin, atası Bahəddin Vələd və oğlu Sultan Vələddən bəhs etsə də, ancaq Şəmsin yerinin bambaşqa olduğunu dəfələrlə qeyd etmişdir. Mövlanə yaxşı dostları peyğəmbərlər məqamında olan peyğəmbər niyyətli dostlar adlandırmışdır. Göstərilir ki, Mövlanə Cəlaləddin Ruminin pedaqoji görüşlərindəki mütərəqqi cəhətlərdən biri də odur ki, o, hər cür milli məhdudiyyət hissindən uzaq olmuş, müxtəlif millətlərdən olan insan surətlərini eyni dərəcədə böyük, coşğun məhəbbətlə yaratmışdır.

7. Mövlanə Cəlaləddin Rumi öz əsərlərində əxlaqlı nəsil formalaşdırmağı qarşısına məqsəd qoymuş, uşaqların ailə tərbiyəsi məsələlərinə xüsusi diqqət yetirərək, tarixən mövcud olmuş ailə formalarını dərindən öyrənmiş, ailələrin vəziyyəti ilə yaxından tanış olmuş və həmin ailələrdə mövcud olan tərbiyə məsələlərinə aid özündən əvvəl yaşamış pedaqoq, psixoloq, filosofların əldə edə bilmədiyi nəticələrə gəlmişdir. Mövlanə ailə münasibətlərində, o cümlədən ailələrin inkişafı tarixində uşaqların tərbiyəsi sahəsində baş verəcək dəyişikliklərə humanizm prinsipindən yanaşaraq, ailə tərbiyəsi, ana, ata, övlad məhəbbəti və s. kimi məsələlərin dəyərləndirilməsindən sistemsiz də olsa maraqla bəhs etmişdir. Ailədə halallıq anlayışının ictimai fəlsəfi-sosioloji məzmununun pedaqoji-psixoloji mahiyyətini aydınlaşdıran Mövlanə halallığın pedaqoji mahiyyətini, ailədə halallıq problemini formalaşdırmağın imkan və yollarını, zəhmət, əmək, alın təri kimi əxlaqi baxış və görüşlərə aydınlıq gətirmişdir. Mövlanə ailədə uşaqları hələ balaca yaşlarından doğruluğa, düzlüyə, vicdanlı, sədaqətli və vəfalı olmağa

öyrətməyi başlıca amil hesab etmişdir. Ümumiyyətlə, Mövlanə Cəlaləddin Ruminin öz şəxsi ailə həyatı, həyat yoldaşına və övladlarına diqqət və qayğısı bəşər cəmiyyətinə bir örnək kimi göstərmək olar.

8. Mövlanə əmək fəaliyyətinə şəxsiyyətin formalaşmasına təsir göstərən əsas amillərdən biri kimi baxmışdır. Onun fikrincə, "xəzinəylə dolu olan torpaq"da gizlənmiş sərvəti üzə çıxarmaq üçün əvvəlcə insana elm, sonra isə əmək, zəhmət gərəkdir. Buludu, dumanı insanın alın tərinə bənzədən Mövlanə insanları hələ balaca yaşlarından əməyə alışdırmağı, gün doğmadan yerindən qalxıb faydalı əməklə məşğul olmağı, öz məqsədlərini əldə etmək üçün səylə çalışmağı əsas amil hesab edir. Məhsuldar əməklə yaşayanların həyatını tərifləyərək mədh edir, onları qoçaq, çalışqan, əməksevər adlandırır. Tənbəl olan, yeməkdən doymayanlara isə istehza edərək belə deyir: "Yuxudan və yeməkdən bir az qənaət et. Uyuyanlardan az uyuyan ol; səhərlərdə əfv diləyənlərdən ol. Rüşeym kimi bir az hərəkət et də, sənə işıq görən duyğular bağışlansın". Ümumtəhsil məktəblərində əmək tərbiyəsini formalaşdırmaq üçün müəllimlər Mövlanə Cəlaləddin Rumi yaradıcılığından nümunələr gətirməklə məktəbliləri işgüzarlığa, əməyə, halal zəhmətə məhəbbət ruhunda tərbiyə etməlidir.

**Tədqiqat işinin məzmunu müəllifin aşağıdakı əsərlərində öz əksini tapmışdır:**

1. Mövlanə Cəlaləddin Rumi mənəvi tərbiyə haqqında // – Naxçıvan: NDU, "Regional inkişaf və böyük mədəniyyət: mənşə, harmoniya və tipologiya məsələləri" mövzusunda beynəlxalq konfrans materialları, –2013. -s. 98.

2. Mövlanə Cəlaləddin Rumi yaradıcılığında əxlaq tərbiyəsi məsələləri // –Naxçıvan: NMİ-nin Xəbərləri, cild:10, –2014. № 4, -s. 53-56

3. Mövlanə Cəlaləddin Ruminin yaradıcılığında dostluq – yoldaşlıq münasibəti məsələləri // –Naxçıvan: NDU, Elmi əsərlər (Humanitar və pedaqogika seriyası), –2016. № 4 (78) –s.147-149.

4. Mövlanə yaradıcılığında qadına münasibət // –Naxçıvan: NDU, Elmi əsərlər (Humanitar elmlər seriyası), –2019. № 1 (98) -s.

41- 42

5. Mövlanə Cəlaləddin Rumi yaradıcılığında dostluq-yoldaşlıq və humanizm tərbiyəsi // –Türkiyə: Kars, "Əbdürrəhim bəy Haqverdiyevin 150 illik yubileyinə həsr olunmuş Beynəlxalq elmi-praktik konfrans" materialları, –2020. -s. 212-215.

6. Mövlanə Cəlaləddin Rumi yaradıcılığında özünütərbiyə məsələləri // –Bakı: Humanitar və ictimai elmlər üzrə I Beynəlxalq elmi konfransın materialları, –2020. -s. 293-295

7. Cəlaləddin Rumi yaradıcılığında ağıl tərbiyəsinin mahiyyəti və məzmunu // –Naxçıvan: NU, "Naxçıvan mədəniyyətlərin qovuşduğu məkan" Beynəlxalq konfrans, –2020. -s.448-452

8. Mövlanə Cəlaləddin Rumi yaradıcılığında əmək və əməkçi insanların tərənnümü // –Bakı: Təhsil İnstitutu, Elmi Əsərlər, –2021. № 2, -s.26-30

9. Cəlaləddin Rumi yaradıcılığından tərbiyə prosesinin vasitə və üsullarına bir nəzər // –Bakı: Elmi iş jurnalı, –2021. № 6, -s. 74-78

10. The Great Educator-Pedagogical Scientist Of Human Culture Movlana Jalaladdin Rumi // –Россия: Пенза, Science And Education: Problems And Innovations сборник статей VIII Международной научно-практической конференции, Состоявшейся 27 июня 2021 г. в г. -p. 94-97

11. The Essence And Content Of Family Education In Creative Activity By Mevlana Jalaladdin Rumi // -Нижневартовск, Россия: Bulletin of Science and Practice T.7. 2021. № 7, -p.425-432.

12. Mövlanə Cəlaləddin Rumi yaradıcılığında əxlaqi görüşlərin kateqorial sistemi // –Naxçıvan: NU, Elmi əsərlər, –2021. № 2, -s. 268-275

13. Universal ideas in the pedagogial accounts of Mevlana Jalaluddin Rumi // –Özbəkistan: Scientific Reports of Bukhara State University. –2021. № 5-6, -p. 233-243

Dissertasiyanın müdafiəsi 28 oktyabr 2022-ci il tarixində saat 11⁰⁰ Naxçıvan Müəllimlər İnstitutu nəzdində fəaliyyət göstərən FD 2.40 Dissertasiya şurasının iclasında keçiriləcəkdir.

Ünvan: Naxçıvan MR, Naxçıvan şəhəri, Heydər Əliyev prospekti 1, AZ7003, Naxçıvan Müəllimlər İnstitutu

Dissertasiya ilə Naxçıvan Müəllimlər İnstitutunun kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları Naxçıvan Müəllimlər İnstitutunun rəsmi internet saytında (www.nmi.edu.az) yerləşdirilmişdir.

Avtoreferat 26 sentyabr 2022-ci il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 23.09.2022
Kağızın formatı: 60x84 1/16
Həcm: 38,622
Tiraj: 100 nüsxə